

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 125 (21.277)

26 iyun 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

İyunun 25-də Bakının Qaradağ rayonunun Puta qəsəbəsində Hərbi Dəniz Qüvvələrinin yeni bazasının və "N" saylı hərbi hissənin açılışı olub.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül dəstəsi qoyub.

Müdafiə naziri Zakir Həsənov Ali Baş Komandan, Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verib.

Azərbaycan Prezidenti rəmzi açılışı bildirən lenti kəsib.

Sonra dövlətimizin başçısı hərbçilərlə görüşüb.

Prezident, Ali Baş Komandan İlham Əliyev mərasimdə nitq söyləyib.

Sonra xatirə şəkli çəkdirilib.

Daha sonra dövlətimizin başçısı "N" saylı hərbi hissənin əsgər yataqxanasında olub.

Dövlətimizin başçısı Hərbi Dəniz Qüvvələrinin poliklinikasındakı şəraitə baxıb.

Gəmilərin yanalma körpüsünə gələn Prezident İlham Əliyev Hərbi Dəniz Qüvvələrinin idarəetmə gəmisinə baxıb. Dövlətimizin başçısına gəminin baş komanda məntəqəsi haqqında məlumat verilib.

Ali Baş Komandan Hərbi Dəniz Qüvvələrinin "N" saylı hərbi hissəsinin qərargahı və matros yataqxanasında yaradılan şəraitlə tanış olub.



## Şahbuz Şəhər Uşaq bağçasının yeni binası istifadəyə verilmişdir





Bu gün Naxçıvan Muxtar Respublikasında gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinə, fiziki və mənəvi cəhətdən sağlam böyüməsinə xüsusi diqqət yetirilir. Son illər aparılan quruculuq işləri məktəbəqədər tərbiyə müəssisələrini də əhatə etmişdir. Artıq muxtar respublikada yerləşən uşaq bağçaları müasir binalarda fəaliyyət göstərir.



Şahbuz Şəhər Uşaq bağçası üçün də yeni bina inşa olunmuşdur.

İyunun 25-də Şahbuz Şəhər Uşaq bağçasının yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Tədbirdə valideyn İntizar Məmmədova çıxış edərək demişdir ki, muxtar respublikada aparılan abadlıq-quruculuq tədbirləri Şahbuz rayonunu da əhatə etmişdir. Həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərinin əsasını təhsil ocaqlarının, məktəbəqədər tərbiyə müəssisələrinin tikintisinin təşkil etməsi ölkəmizdə gələcəyimiz olan uşaqlara göstərilən qayğıdan xəbər verir. Şahbuz şəhərində bu cür yaraşıqlı və hərtərəfli şəraiti olan uşaq bağçasının istifadəyə verilməsi sakinlərin sevincinə səbəb olmuşdur. Çünki yaradılan bu şərait övladlarımızın düzgün tərbiyə almasına və sağlam böyüdülməsinə hesablanmışdır. İntizar Məmmədova göstərilən diqqət və qayğıya görə valideynlər adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz Şəhər Uşaq bağçasının istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını, valideynləri və uşaqları təbrik edərək demişdir: Bu gün ölkəmizdə ümummilli lider Heydər Əliyevin yolu uğurla davam etdirilir, bütün sahələrin inkişafına dövlət qayğısı göstərilir. Lakin uşaqlara və gənclərə göstərilən qayğı bu tədbirlər içərisində xüsusi yer tutur. Çünki uşaqlara qayğı gələcəyimizə göstərilən qayğıdır. Onların sağlam böyüməsi, yaxşı təhsil alması və əsl vətəndaş kimi yetişməsi ölkəmizin gələcəyinə xidmət edir. Bu gün Şahbuz Şəhər Uşaq bağçasının istifadəyə verilməsi də bu tədbirlərin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Uşaqlara, onların təlim-tərbiyəsinə, təhsilinə qayğı bizim əsas borcumuzdur".*** Bu gün ölkəmizdə, eləcə də muxtar respublikada məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətinin gücləndirilməsi, müasir uşaq bağçalarının istifadəyə verilməsi ulu öndərin tövsiyələrinin yerinə yetirilməsinin daha bir ifadəsidir. Şahbuz Şəhər Uşaq bağçası son illər muxtar respublikada istifadəyə verilən 17-ci məktəbəqədər təhsil müəssisəsidir. Burada 13 qrupda 242 uşaq təlim-tərbiyə alacaq, məktəbə hazırlıq kursları keçəcəklər. Bu da uşaqların gələcək məktəb illərində çətinlik çəkmədən təhsillərini davam etdirməsinə imkan verəcəkdir. Çünki uşaqların gələcəkdə məktəbdə yaxşı təhsil alması məktəbəqədər təhsilin düzgün təşkilindən asılıdır.

Ali Məclisin Sədri demişdir: Uşaq bağçalarının yaradılması, onların fəaliyyətinin təmin olunması məktəbəqədər təhsilin düzgün təşkili ilə yanaşı, həm də ailələrə dəstəkdir.



Valideynləri işləyən uşaqlar, eyni zamanda xüsusi qayğıya ehtiyacı olan ailələrdə böyüyən uşaqlar bağçada təlim-tərbiyə alır, onların məktəbəqədər tərbiyəsi düzgün təşkil olunur. Bu mənada bağçaların yaradılması və fəaliyyətinin təmin edilməsi həm də işləyən və xüsusi qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı kimi mühüm əhəmiyyət daşıyır. Ona görə də kollektiv uşaqların məktəbə hazırlığına, qidalanmasına və sağlamlığına xüsusi diqqət yetirməlidir.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin kollektiv tərəfindən uğurla yerinə yetiriləcəyinə əminliyini bildirmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 4 mərtəbədən ibarət olan uşaq bağçasında yataq və soyunub-geyinmə otaqları, yemək və oyun zalları, valideynlər üçün gözləmə otağı, tədbirlər zalı, yeməkxana, bufet, metodist və tibb otaqları, dərzi, anbar və camaşırxana vardır. Burada uşaqların təlim-tərbiyəsi ilə 25 tərbiyəçi-müəllim məşğul olur.

Bina ilə tanışlıq zamanı Ali Məclisin Sədri valideynlərlə görüşmüşdür.

Valideynlərdən Növrəstə Xudiyeva, Aysel Seyidova və Sədayə Vəliyeva sakinlər adından minnətdarlıq etmişlər.

Ardı 2-ci səhifədə



Növrəstə Xudiyeva demişdir: Bu gün müstəqil Azərbaycanın inkişafı hər bir sakini qürurlandırır. Bu inkişafın tərkib hissəsi kimi uşaqlara göstərilən qayğı isə valideynləri ikiqat sevindirir. Muxtar respublikada gələcəyimiz olan gənc nəsil dövlət qayğısı əhatəsindədir. Yeni bağçada uşaqların məktəbəqədər tərbiyəsi hərtərəfli təşkil olunacaqdır. Valideyn kimi bu qayğının müqabilində üzərimizə düşən məsuliyyəti dərk edirik. Çalışacağıq ki, xalqımıza, dövlətçiliyimizə sadiq layiqli vətəndaşlar yetişdirək.

Tədbirlər zalında uşaqlar şeir və mahnılar söyləmiş, rəqs etmişlər.

Ali Məclisin Sədri metodiki vəsaitlərdən düzgün istifadə olunması, uşaqların sağlamlığına və qidalanmasına ciddi nəzarət olunması, təmizliyə, gigiyenik tələblərə lazımi şəkildə əməl edilməsi barədə tapşırıqlar vermişdir.

Bağçanın ətrafında abadlıq işləri görülmüş, həyətdə oyun meydançası yaradılmışdır.

* * *

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şahbuz şəhərində aparılan abadlıq işləri ilə də tanış olmuşdur.

Bildirilmişdir ki, Şahbuz şəhərində uşaq bağçası inşa olunarkən bir sıra abadlıq işləri də görülmüş, şəhərin küçələrinə yeni görkəm verilmiş, işıqlandırma sistemləri yenilənmişdir. Bu işlər çərçivəsində şəhərdəki soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidə də yenidən qurulmuş, ətrafı abadlaşdırılaraq park salınmışdır.

## Şahbuz şəhərində Bayraq Meydanı inşa olunur

Dövlət atributlarına hörmət və ehtiram ulu öndər Heydər Əliyevin xalqımıza ən böyük əmanətidir. Bu gün müstəqil Azərbaycanın üçrəngli bayrağına ölkəmizdə və muxtar respublikada xüsusi ehtiramla yanaşılır. Bu sahədə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq Şahbuz şəhərində Bayraq Meydanı inşa olunur.

İyunun 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Bayraq Meydanının inşa olunacağı əraziyə baxmışdır.

Məlumat verilmişdir ki, şəhərin girişində inşa olunacaq Bayraq Meydanının ətrafında geniş abadlıq işləri görülmüş, səkilər salınmış, piyada keçidləri qoyulmuşdur. Ərazi terraslara ayrılmış, milli ornamentlərin əks olunduğu memarlıq elementləri ilə dizayn edilmişdir. Bayraq dirəyinin hündürlüyü postamentlə birlikdə 37 metr olacaqdır. Ətrafda müasir işıqlandırma sistemləri quraşdırılacaq, park salınacaq, sakinlərin mənalı istirahəti təşkil ediləcəkdir.

Ali Məclisin Sədri tikinti işlərinin layihə əsasında aparılması, ərazidə geniş yaşıllıq işlərinin görülməsi, Bayraq Meydanının ətrafında istirahət parkının salınması və ictimai iaşə obyektinin tikilməsi barədə tapşırıqlar vermişdir.



**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*26 İyun Silahlı Qüvvələr Günüdür*

## Güclü ordu dövlət müstəqilliyinin qarantıdır

**Güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi, elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Azərbaycanda milli ordu quruculuğu çox çətin, mürəkkəb və ziddiyyətli mərhələlərdən keçmişdir. Bu gün artıq müstəqil Azərbaycanın peşəkar hərbçi kadrlardan ibarət, güclü maddi-texniki bazaya, müasir texnika və silahlara malik olan nizami ordusu vardır.**



Azərbaycanda nizami ordunun yaradılmasına ötən əsrin əvvəllərindən başlanılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə Əlahiddə Azərbaycan Korpusu yaradılmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanı ilə iyunun 26-sı Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edilmişdir.

Ölkəmizdə dövlətin və dövlətçiliyin əsas sütununu təşkil edən güclü ordunun formalaşdırılması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Güclü siyasi iradəyə, yüksək sərkərdəlik məharətinə malik dahi şəxsiyyətin ölkəmizə ilk dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ildən başlanan tarixi mərhələ həm də Azərbaycanın nizami ordusunun formalaşdırılması kimi əlamətdar olmuşdur. Təbii ki, Sovetlər Birliyi dövründə milli ordudan söz açmaq mümkün deyildi. Lakin o dövrdə azərbaycanlı gənclərin hərb elminə marağının artırılması və bunun üçün real şəraitin yaradılması dahi rəhbərin gələcəyə hesablanmış uzaqgörən siyasətinin tərkib hissəsi idi. Ötən əsrin 70-ci illərində Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması bu mənada mühüm əhəmiyyət daşımışdır. Bundan başqa, ulu öndərin rəhbərliyi ilə gənclərimiz müxtəlif respublikalarda hərbi təhsil almış, ixtisaslı hərbçi kadrlar kimi formalaşaraq vətənə qayıtmışlar. Dahi liderin birbaşa şəxsi təşəbbüsü ilə o dövrdə hazırlanan hərbi kadrlar sonradan müstəqil Azərbaycanın qüdrətli milli ordusunun peşəkar komandan heyətini təşkil etmişdir.

Azərbaycanda milli ordunun formalaşdırılması prosesi ötən əsrin 90-cı illərinə təsadüf edir. Bu, həmin dövr idi ki, Sovet imperiyası dağılmış, Azərbaycan yenicə müstəqillik qazanmışdı. Lakin müstəqilliyin ilk illərində müstəqilliyin əsas təminatçısı olan milli ordu yaradılmadı. Pərakəndə hərbi birləşmələr düşmən hücumlarının qarşısında aciz qalmış, Azərbaycan əraziləri işğal olunmuş, müstəqilliyimiz təhlükə altına salınmışdı.

Həmin illərdə belə bir təhlükə Naxçıvanı da gözləyirdi. Lakin ulu öndərin atdığı qətiyyətli addımlar nəticəsində Naxçıvanda yerləşən hərbi birləşmələr düşmən hücumlarının qarşısını almış, Azərbaycanda milli ordunun formalaşmasına Naxçıvandan başlanmışdır. Ümummilli liderimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra ordu quruculuğu istiqamətində mühüm qərarlar qəbul etmiş, Naxçıvanda Dövlət Müdafiə Komitəsi yaradılmışdır. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edildi. 1992-ci il sentyabrın 19-da isə Dövlət Müdafiə Komitəsinin fəaliyyəti dayandırıldı və onun bütün əmlakı 705 saylı hərbi hissəyə təhvil verildi. Elə həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında” Qərar qəbul edildi. 1992-ci il oktyabrın 9-da milli ordu hissəsinin yaradılmasının 1 illiyi münasibətilə ilk hərbi parad da Naxçıvanda keçirilmişdir.

***“Ordu yaratmaq, qurmaq asan bir iş deyildir. Hər bir hakimiyyət orqanının kiçik, ya böyük hissəsi, hər bir vətəndaş gərək hər bir sahədə ordu quruculuğuna öz töhfəsini, öz payını versin. Çünki ordu xalqındır. Ordu, Silahlı Qüvvələr xalqın təhlükəsizliyini və müstəqil dövlətin suverenliyini qorumaq üçün lazımdır”.*** Ulu öndərimizin sonrakı illərdə həmin tarixi dövrü xatırlayarkən dediyi bu fikirlər, əslində, həm də xalq-ordu birliyinə çağırış idi. Azərbaycan xalqı da bu çağırışa cavab verdi, milli ordusuna güvəndi, dahi liderin ideyaları ətrafında sıx birləşərək ölkəmizin gələcək inkişafını təmin etdi.

Xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da xilaskarlıq missiyasını yerinə yetirdi. Tezliklə ölkədə hərc-mərcliyə son qoyuldu, qeyri-qanuni silahlı birləşmələr ləğv edilərək vahid komandanlığa əsaslanan milli ordu yaradıldı, cəbhədə atəşkəsə nail olundu. Əldə olunan sabitlik isə ölkə iqtisadiyyatını gücləndirməyə zəmin yaratdı. Bunun da müqabilində müasir ordu quruculuğu prosesi geniş vüsət aldı. Tezliklə ayrı-ayrı qoşun növləri üzrə ixtisaslaşmış hərbi hissələr yaradılaraq sistemləşdirildi. Silahlı Qüvvələrimizin maddi-texniki təminatı illər ötdükcə daha da yaxşılaşdırıldı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı. Ordu quruculuğunun müxtəlif sahələri ilə bağlı zəruri qanunlar qəbul edildi.

Ərazi bütövlüyünün təminatçısı olan ordunun formalaşdırılması ixtisaslı hərbi kadrların hazırlanmasından başlayır. İstər ölkəmizə rəhbərliyinin birinci, istərsə də ikinci dövründə ordu quruculuğunu üstün istiqamət kimi müəyyənləşdirən, gənc hərbçilərin yetişdirilməsi istiqamətində konkret tədbirlər görən ümummilli liderimizin rəhbərliyi ilə ölkədə hərbi kadr hazırlığı və beynəlxalq standartlara cavab verən hərbi təhsil sistemi formalaşdırıldı.

***“Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının Milli Ordusu – respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarının müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır”,*** – deyən ümummilli liderimizin rəhbərliyi ilə qısa müddətdə ordunun qanunvericilik bazası yaradılmış, “Silahlı Qüvvələr haqqında”, “Hərbi xidmət haqqında”, “Hərbi qulluqçuların statusu haqqında” qanunlar qəbul edilmişdir. Bununla yanaşı, Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələrinin qurulması da diqqət mərkəzində saxlanılmış, 1994-cü ildə Azərbaycan Respublikası NATO-nun “Sülh Naminə Tərəfdaşlıq Proqramı”na qoşulmuşdur. Bu gün artıq Silahlı Qüvvələrimizin sülhməramlıları müxtəlif münaqişə zonalarında öz missiyalarını uğurla yerinə yetirirlər.

Ulu öndərin ordu quruculuğu siyasətini uğurla həyata keçirən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində milli ordumuz davamlı olaraq inkişaf edir. ***“Bu gün Azərbaycan Ordusu hərbi potensialına, döyüş qabiliyyətinə, təchizatına görə nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır. Əminəm ki, Azərbaycan gücləndikcə, ordumuz da güclənəcək. Artıq ordumuz istənilən vəzifəni həll etməyə hazırdır”,*** – deyən ölkə Prezidentinin rəhbərliyi ilə Azərbaycanda müasir hərbi sənaye kompleksi yaradılmış, Silahlı Qüvvələrin maddi-texniki bazası müasir texnika və silahlarla zənginləşdirilmiş, bu sahədə kadr hazırlığı təkmilləşdirilmişdir. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyəti artırır.

Ölkəmizdə ordu quruculuğu istiqamətində görülən işlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyev Naxçıvanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsini daim diqqət mərkəzində saxlayır. Dövlət başçısının “Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2013-cü il 18 dekabr tarixli Fərmanına



*Ardı 3-cü səhifədə*



əsasən, 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusunun yaradılması bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Bununla da, Naxçıvanın müdafiə potensialının, hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə əsaslı zəmin yaranmışdır. Ölkə Prezidenti cənab İlham Əliyev Əlahiddə Ümumqoşun Ordusunun yaradılması barədə danışarkən demişdir: ***"Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır"***.

Bu gün Əlahiddə Ümumqoşun Ordusunun döyüş qabiliyyətinin artırılması istiqamətində ardıcıl tədbirlər görülür. Muxtar respublika ərazisindəki hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır. Bir faktı qeyd etmək yerinə düşər ki, ötən 20 il ərzində muxtar respublikanın etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilmiş tədbirlər çərçivəsində yüzlərlə hərbi obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Naxçıvanda xalq-ordu birliyi özünün ən yaxşı ifadəsini tapmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tez-tez sərhəd bölgələrindəki hərbi hissələrdə olması xidmətin vəziyyəti, əsgərlərin həyat tərzi və problemləri ilə mütəmadi olaraq maraqlanması şəxsi heyətə mənəvi-psixoloji dəstək verməklə, onlarda vətənpərvərlik hislərinin daha da güclənməsinə səbəb olur. Bu il mayın 15-də Əlahiddə Ümumqoşun Ordusunun hissə və birləşmələri Türkiyə Silahlı Qüvvələri ilə birgə taktiki təlimlərdə iştirak etmiş, qarşılıqlı əlaqə zəminində verilən tapşırıqların icrasını uğurla yerinə yetirmişdir. Həmçinin şəxsi



heyətin keçirilən gecə təlimlərində peşəkarlıq nümayiş etdirməsi Əlahiddə Ümumqoşun Ordusunun istənilən relyef, məhdud görmə və hava şəraitində verilən tapşırıqları layiqincə yerinə yetirməyə qadir olduğuna heç bir şübhə yeri qoymur.

Muxtar respublikada hərbi kadrların yetişdirilməsi məsələsi də daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə Heydər Əliyev adına Hərbi Liseyin maddi-texniki bazası möhkəmləndirilmiş, kursantlar üçün müasir tədris, rahat məişət və yaşayış şəraiti yaradılmışdır. Artıq Hərbi Lisey ölkəmizdə gələcəyin peşəkar zabitlərinin yetişdirilməsinə mühüm töhfə verən mötəbər təhsil ocağıdır. Bu gün liseydə nəinki muxtar respublikadan, Azərbaycanın digər bölgələrindən olan gənclərin də hərbi təhsil alması bunu bir daha təsdiq edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Hər bir dövlətin və cəmiyyətin həyatında ordu mühüm rol oynayır. Ordu müstəqillik rəmzidir. Xalqın əmin-amanlıqda yaşaması, dövlətin isə müstəqil olması üçün onun güclü, öz dövrünün tələblərinə cavab verən ordusu olmalıdır"***. Bu gün Azərbaycan Milli Ordusu ümummilli liderimizin uzaqgörən və xilaskarlıq fəaliyyətinin bəhrəsi kimi daim inkişaf edir, möhkəmlənir. Bu isə xalqımızın xoşbəxt həyatının qarantıdır. Çünki o xalq xoşbəxt hesab olunur ki, onun güclü ordusu vardır. Qüdrətli Azərbaycanın ordusu xalqımızın qürur, iftixar mənbəyi, tükənməz inamı, arxa-dayağıdır. Blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikanın düşmənlə üz-üzə, ən ucqar yaşayış məntəqəsində belə, həyat davam edir, məskunlaşma durmadan artır. Öz milli ordusuna, mərd, mətin və mübariz övladlarına güvənən sakinlər arxayın yaşayır, öz təsərrüfatları ilə məşğul olur, yurda bağlılıqlarını nümayiş etdirirlər. Dövlətimizin diqqət və qayğısını, xalqın dayağını daim öz üzərində hiss edən hərbçilərimizin isə döyüş ruhu birə-beş artır, Vətən övladları sərhədlərimizin keşiyində ayıq-sayıq dayanırlar.

*Bu gün Azərbaycan xalqı xoşbəxtdir ki, əlində silah gecə-gündüz Vətənə keşik çəkən igid əsgər və zabitləri vardır. Yüksək döyüş imkanlarına, müasir silah və texnikalara malik olan milli ordusu vardır. İşğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etmək üçün hər an Ali Baş Komandanın əmrini gözləyən peşəkar hərbçilərimiz vardır.*

**"Şərq qapısı"**

## Naxçıvan torpaq üzərində çəkilmiş rəsm əsəridir

### *Türkiyəli rəssamlar qədim diyarımızın tarixinə və bugünkü növrağına heyran qalıblar*

*Xəbər verdiyimiz kimi, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Türkiyə Gözəl Sənət Əsərləri Sahibləri Peşə Birliyinin (GESAM) 30 nəfər üzvünün rəsm sərgisi təşkil olunub. Rəsm əsərlərinin, fotoşəkillərin və heykəltəraşlıq nümunələrinin nümayiş etdirildiyi sərgidə 70 əsər sənətsevərlərə təqdim edilib. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sərgi salonunda GESAM-ın idarə heyətinin üzvü və Türkiyə Respublikası Turizm Nazirliyinin əməkdaşı Nezih Demirtepe, həmin təşkilatın üzvü Erdal Bölükbaşı və Türkiyə Respublikasının Turizm Nazirliyinin nümayəndəsi və TRT-nin İdarə Heyətinin üzvü Orhan Kalkanla sərginin sonuncu günü görüşüb həmsöhbət olduq, Naxçıvanla bağlı təəssüratlarını öyrəndik.*



**Nezih DEMİRTEPE:** – Qeyd etmək istəyirəm ki, bu gün Azərbaycan incəsənətinin nümayəndələri ölkəmizdə tanınır və sevilirlər. Türkiyə və Azərbaycan arasında mədəni-kulturoloji əlaqələr ilbəil genişləndirilir. Belə tədbirlər hər iki ölkənin mədəniyyətini daha da sıx birləşdirir. İyunun 25-dək nümayişi davam edən sərgidə Türkiyənin peşəkar rəssamlarından Leyla Afacan Kodaman, Metin İlyas Aksoy, Füsun Altuğ, Hasan Çakır, Hüsnü Kaçmaz, Saniye Doğramacı, Sevgi Kayalıoğlu, Nilufer İnaltonq ilə bərabər mənim, Can Akının, Canan Özdemirin, Ahmet Vildan Büyükekşinin, heykəltəraş Nəcməddin Yağcının əsərləri yer almışdı. Bu sərgi naxçıvanlı sənətsevərlərdə Türkiyənin gəzməli-görməli yerləri, Türkiyə insanının müasir yaşayış, düşüncə tərzi haqda aydın təsəvvürün formalaşmasına imkan yaradır. İdarə heyətinin üzvü olduğum GESAM təşkilatının xətti ilə ölkənizin paytaxtı Bakı şəhərində Türkiyənin Azərbaycandakı Səfirliyinin keçirdiyi bir neçə tədbirə qatılmışam. Naxçıvana isə ilk gəlişimdir. Naxçıvanlı rəssamlar və rəsmsevərlər sərgiyə böyük maraq göstərdi.



**Orhan KALKAN:** – Türkiyə Respublikasının Turizm Nazirliyində turizm üzrə mütəxəssis, təşkilatçılıq və metodologiya bölməsinin sədri, turizm təhsili üzrə baş direktor köməkçisi və digər vəzifələrdə işləmişəm. Türkiyənin bir çox universitetində turizm və otelçilik ixtisasları üzrə dərs demişəm, turizm mövzusunda dünyanın bir çox ölkələrində keçirilən tədbirlərdə məruzələr etmişəm. Buna görə də Naxçıvana gəldiyim ilk dəqiqələrdən bu diyarın turizm potensialı ilə maraqlanmağa başladım. Açığını deyim ki, muxtar respublikanın turizm imkanları məni çox heyrətləndirdi. Çünki burada turizmin istənilən növünü inkişaf etdirmək üçün geniş imkanlar, bənzərsiz tarixi və təbiət abidələri, müasir turizm infrastrukturu var. Burada turizm sahəsində mütəxəssislərlə söhbətlərdən mənə məlum oldu ki, ildən-ilə muxtar respublikaya gələn əcnəbi turistlərin sayında artım müşahidə olunmaqdadır. Qədim diyarınıza səfər edən turistlərə müasir standartlara uyğun mehmanxana və nəqliyyat xidmətləri təklif olunur. Naxçıvan müasir otelləri və yol infrastrukturu ilə dünyanın ən inkişaf etmiş ölkələri ilə müqayisə oluna bilər. Mənim qənaətim belədir ki, ilk növbədə, Naxçıvanın qədimliyi xarici turistləri cəlb edir. Məsələn, Naxçıvanda olan bir sıra qədim türbələr və ziyarətgahlar xarici turistlərdə böyük maraq oyadır. Əlavə olaraq bunu deyə bilərəm ki, bəşəriyyətin bütünlüklə qəbul etdiyi Nuh Peyğəmbərin məzarının məhz Naxçıvanda olması turistləri bu torpağa cəlb edir. "Əshabi-Kəhf"in adı müqəddəs kitabımız olan "Quran"da çəkilir. Bu səbəbdən də bir çoxlarının marağına səbəb olan bir yerdir. Bundan başqa, Naxçıvanda Turizm-İnformasiya Mərkəzinin fəaliyyətini də xüsusi qeyd etmək lazımdır. Təəssüflə deməliyəm ki, Naxçıvanın turizm imkanları haqda Türkiyədə o qədər də ətraflı məlumat yoxdur. TRT-nin İdarə Heyətinin üzvü olaraq buraya gəldikdən sonra turizm sahəsində ortaq layihələrin həyata keçirilməsinin zəruri olduğunu bir daha hiss etdim və düşünürəm ki, buradakı məsləkdaşlarımla bərabər istər Türkiyənin, istərsə də Naxçıvan Muxtar Respublikasının tanıdılmasında kütləvi informasiya vasitələrində ortaq layihələr həyata keçirə bilərik. Turizmin bütün növlərinin inkişafı üçün diyarınızda geniş imkanlar var və inanıram ki, gələcəkdə Naxçıvan bir turizm cənnətinə çevriləcək.



**Erdal BÖLÜKBAŞI:** – Naxçıvanı görmək, burada açılan sərgidə iştirak etmək mənim üçün böyük xoşbəxtlikdir. Bu qədim oğuz-türk torpağında böyük qonaqpərvərliklə qarşılandıq, bizə bir sənətçiyə layiq şəkildə diqqət və hörmət göstərildi. Mübaliğəsiz deyə bilərəm ki, əsərlərimizin sərgiləndiyi bina regionun ən gözəl memarlıq nümunələri ilə müqayisə ediləcək səviyyədədir. Onu da deməyi özümə borc bilirəm ki, çox gözəl diyarınız, əsrarəngiz, təmiz və səliqəli, müasir, insanları gülərüz və mehriban şəhəriniz var. Naxçıvan rəssamlıq məktəbi ilə tanışlıq isə məni xüsusilə valeh etdi. Məncə, bu məktəbi nəinki regionda, hətta bütün dünyada tanıtmaq lazımdır. Ən böyük arzularımdan biri də odur ki, Naxçıvanın təbiəti haqda bir rəsm əsəri yaradım və onu dünyanın müxtəlif ölkələrində nümayiş etdirim. Elə bilirəm ki, bu rəsmi çəkmək mənim üçün çox asan olacaq. Çünki Naxçıvan öz dağları, çayları, meşələri, yamyaşıl düzənlikləri, tarixi abidələri, yolları, abad şəhərləri, kəndləri ilə torpaq üzərində çəkilmiş rəsm əsəridir. Naxçıvanın şux əlvan rənglərinin kətan üzərinə köçürülməsində təxəyyülün zənginliyinə ehtiyac yoxdur. Burada olarkən gənc rəssamlarla da görüşüb həmsöhbət oldum. Bu söhbətlərdən anladım ki, dövlətiniz incəsənətlə məşğul olan hər bir gəncə xüsusi diqqət göstərir, onun qayğısına qalır, problemləri ilə maraqlanır. Burada incəsənətə göstərilən qayğı ilə bağlı eşitdiklərim və gördüklərim məni heyrətə gətirdi. Təbii ki, incəsənət adamları üçün yaradılan şəraitin təməlində ölkənizdə hökm sürən ictimai-siyasi sabitlik, iqtisadi inkişaf, mədəni quruculuq durur. Bütün bu şəraiti yaradanlara minnətdarlıq etmək lazımdır. Çünki Azərbaycandan başqa, dünyanın heç bir ölkəsində adi bir rəssamın və ya incəsənət sahəsi ilə məşğul olan hər hansı bir vətəndaşın dövlət tərəfindən istər maddi, istərsə də mənəvi cəhətdən dəstəkləndiyini görmək mənə müyəssər olmayıb. Məncə, bütün bunlar tarixi keçmişinizi yaşatmaqla bərabər, ölkənin parlaq gələcəyi naminə atılan addımlardır və gələcək nəsillər tərəfindən layiqli qiymətini alacaq.

**Səbuhi HÜSEYNOV**



## Muxtar respublikada xalq teatrlarının festivalı davam edir

***Xəbər verdiyimiz kimi, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Sərəncamına uyğun olaraq, iyunun 20-də xalq teatrlarının festivalına start verilib. Dünən Rza Təhmasib adına Şərur Rayon Xalq Teatrı C.Məmmədquluzadənin "Ölülər" əsərinin motivləri əsasında hazırlanmış "Yuxu" tamaşası ilə səhnəyə çıxıb.***

Tamaşanın quruluşçu rejissoru və səhnə üçün işləyəni Nəsimi Məmmədzadədir. Nəsimi Məmmədzadə orijinal üsulla hazırladığı tamaşaya həm də maraqlı musiqi seçib. Tamaşada məşhur "Ölülər" əsərində İsgəndərin monoloqu üzərində dayanılaraq sanki keçmişdən bu günə nəzər salınır. Xurafatın, cahilliyin hökm sürdüyü mühitdə içkiyə qurşanan İsgəndərlə (aktyor Nemət İslamoğlu) kənd qəbiristanlığında qarşılaşırıq. Məşhur monoloqu ilə səhnədə görünən kefli İsgəndər bacısı Nazlını (aktrisa Nurbəniz Niftəliyeva) görür və onun halına, bacısı kimi cavan qızların yaşlı, qoca kişilərə ərə verilməsinə acıyır. Qəbiristanlıq səhnəsində Şeyx Nəsrullahın (aktyor Məhərrəm Əbilsoy) peyda olması hadisələrə bir az da dinamizm gətirir. Tamaşada kütləvi səhnələr də hadisələrin gərginliyini artırır. Tamaşanın ən maraqlı səhnəsi kefli İsgəndərin qəbiristanlıqda yuxuya getməsidir. Yuxuya gedən İsgəndər ölkəmizin, xalqımızın bu gününü görür. Bu səhnənin yaradılmasında quruluşçu rejissor bu günümüzlə bağlı videoçarxdan istifadə edərək hadisələri müqayisə etməyə imkan yaradır. Yüz il bundan əvvəl baş verən bu hadisələr bu günümüzdə yoxdur. Tamaşaçı bir anlığa xalqımızın hansı inkişaf və tərəqqi yolu keçdiyini görür. Bu günün Nazlıları müəllimdir, həkimdir, xalqına layiqincə xidmət edən qadındır, eyni zamanda xoşbəxt anadır. Bu gün ölkəmiz də, xalqımız da o illərin avamlığından qurtulmuş xoşbəxt ölkədir, xalqdır. Tamaşanın əsas məqsədi keçmişlə bu günü müqayisə etməkdir.

Xatırladaq ki, iyunun 30-da Şahbuz Rayon Xalq Teatrı "O olmasın, bu olsun" tamaşası ilə səhnəyə çıxacaq.

**Əli RZAYEV**

**“Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 2 iyun tarixli Sərəncamına əsasən, milli mətbuatın 140 illik yubileyi ölkəmizdə geniş qeyd olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 10 iyun tarixli Sərəncamı ilə “Azərbaycan milli mətbuatının 140 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı” təsdiq edilmişdir. Həmin plana uyğun olaraq, tədbirlər keçiriləcək, milli mətbuatın keçdiyi inkişaf yolu barədə yazılar hazırlanıb oxuculara təqdim ediləcək.**

**“Şərq qapısı” qəzeti ölkənin qocaman mətbuat orqanlarından biridir. Qəzet ötən dövr ərzində muxtar respublikanın ictimai-siyasi, mədəni, iqtisadi həyatında mühüm rol oynamış, dövrün, zamanın salnaməsinin yaradılmasında şərəfli bir yol keçmişdir. “Şərq qapısı”nda güclü jurnalistlər məktəbi yaranmış, mətbuat orqanında çalışanlar öz vəzifə borclarını layəqətlə yerinə yetirməyə səy göstərmiş, qəzetin regionun aynasına çevrilməsi üçün bacarıqlarını əsirgəməmiş və buna nail ola bilmişlər. Qəzetimizin bu nömrəsindən başlayaraq “Şərq qapısı”nın keçdiyi yol haqqında silsilə yazılar dərc olunacaq. “Şərq qapısı” qəzetinin tədqiqatçısı, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyidin “Cavanlar həyatı”, “Füqərə səsi” qəzetləri “Şərq qapısı”nın sələfi kimi” adlı ilk yazısını oxuculara təqdim edirik.**

*Azərbaycan milli mətbuatı — 140*

# “Cavanlar həyatı”, “Füqərə səsi” qəzetləri “Şərq qapısı”nın sələfi kimi

Ötən əsrin 20-ci illərində Naxçıvan İnqilab Komitəsinin ilk tədbirlərindən biri mətbu orqanın yaradılması olmuşdur. İnqilabın ilk illərində Naxçıvanda İnqilab Komitəsinin orqanı olan “Kommunist” qəzeti nəşr edilməyə başlayır. Filologiya elmləri namizədi Lətif Hüseynzadə qeyd edirdi ki, qəzetin yazılmasına gözəl xətti olan məktəblilər və müəllimlər cəlb edilirdilər. O, öz məqaləsində bu qəzetin 50-60 nüsxə, 2 səhifə həcmində ərəb əlifbası ilə əlyazma şəklində buraxılması haqqında məlumat verir. Bu mətbu orqanın nəşrində Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, kimya elmləri doktoru, professor Cümşüd Zülfüqarlı və uzun müddət məsul vəzifələrdə çalışmış Nemət Novruzovun böyük xidmətləri olmuşdur. Qəzet hazır olduqdan sonra şəhərin müxtəlif yerlərində divarlardan asılarmış. Qısa müddətdən sonra vərəqələr dövrün tələblərinə cavab vermədiyi üçün nəşri dayandırılır.

“Şərq qapısı” qəzetinin 31 mart 1925-ci il tarixli 100-cü nömrəsində bu haqda belə məlumat verilir: “1921-ci ilin əvvəllərində Ölkə İnqilab Komitəsinin daxili işlər şöbəsi tərəfindən divar qəzetəsinə oxşar əl yazısı ilə “Kommunist” nam qəzetəsinin nəşrinə şüru edildi. Bu qəzetə həftədə bir dəfə olaraq əlli nüsxə buraxılırdı. Bir neçə vaxt keçəndən həman qəzetə bir taqım səbəblərdən qapanmağa məcbur oldu. Bundan sonra mərkəz ilə əlaqə, bir növ, düzəlincə Naxçıvana rus hürufatı ilə bir Amerikanka (makina) gətirilməsindən istifadə edərək rus dilində İnqilab Komitəsi tərəfindən “Nax-respublika” namında 2 səhifəlik qəzetənin nəşrinə şüru edilsə də, yenə də göstərilən səbəblərə görə bağlanmağa məcbur oldu”.

Beləliklə, buradan aydın olduğu kimi, 1921-ci ildə Naxçıvan İnqilab Komitəsi Bakıdan ərəb və rus şriftləri olan mətbəə avadanlığı və bu avadanlığı işlətmək üçün iki mütəxəssis gətirmişdir. Görülən ilk tədbirlərdən biri də 1921-ci ildə iki qəzetin nəşrinə başlamaq olur. Bu qəzetlərdən biri İnqilab Komitəsinin və hərbi hissənin orqanı olan, çətinliklər üzündən qısa müddətdə nəşrini dayandıran “Nax-respublika” qəzeti, ikincisi həmin ilin noyabr ayının birindən, şənbə günü “Cavanlar həyatı” adı ilə nəşr olunan qəzet idi. Maraq doğuran məqamlardan biri də odur ki, qəzetin üz səhifəsində bu mətbu orqanın nəşri tarixi 9 noyabr yazılmasına baxmayaraq, bütün elmi məqalələrdə qəzetin 1 noyabrdan işıq üzü görməsi haqda məlumatlar öz əksini tapmışdır. Bu məsələyə aydınlıq gətirmək üçün Lətif Hüseynzadənin “İlk komsomol qəzeti” başlıqlı məqaləsinə müraciət etmək lazım gəlir: “Cavanlar həyatı” qəzeti 1921-ci ilin noyabr ayının 1-dən nəşrə başlamışdır. (Bəzi texniki səbəblər üzündən qəzet noyabrın 9-da nəşr olunmuşdur)”. “Cavanlar həyatı” qəzetinin nəşrində əsas məqsəd o dövrdə ictimai həyatın bütün sahələrindəki yenilikləri xalqa çatdırmaq olmuşdur.

“Cavanlar həyatı” ərəb əlifbası ilə kiçik həcmdə vərəqə şəklində çap edilirdi. Müxbirlərin və mətbəə avadanlığının çatışmaması, əhalinin savadsızlığı ucbatından tirajı 100-150-dən artıq olmayan qəzetin nəşri tez-tez dayandırılırdı. “Cümlə cahan füqərayi kasibəsi toplaşın!” şüarı altında nəşr olunan qəzetin ilk nömrəsində “1 noyabr”, “Cocuq həftəsi”, “Naxçıvan xəbərləri”, “Ərazi komissarlığının məlumatı” başlıqlı məqalələr və başqa məlumatlar verilmişdir.

“1 noyabr” adlı baş məqalədə qəzetin nəşr olunma zərurəti və gələcək fəaliyyəti haqqında məlumat verilmişdir: “Bu gündən etibarən Naxçıvanda Azərbaycan Gənclər İttifaqının Naxçıvan Ölkə Komitəsi tərəfindən bu ruznamənin nəşrinə iqdam olundu. Bu ruznamə gələcəkdə cavanlar ittifaqının nə olduğunu, cavanların gələcəkdə ümumdünya sahəsində nə kimi rol oynamalı olduqlarını fəhlə və kəndli cavanlarına bəqədri imkan bildirəcək. Əminik ki, qeyrətli və məharətli cavanlarımızın məhəbbət və məvəddətindən tutduğu yol, boynumuza aldığımız vəzifə gələcəkdə ifa olunar”.

“Cocuq həftəsi”ndə Naxçıvan Mərkəzi İnqilab Komitəsinin dekretinə əsasən, Xalq Maarif Komissarlığı tərəfindən noyabr ayının 1-də elan olunan Cocuq həftəsinin təşkili və keçirilməsində komsomol təşkilatının üzərinə düşən vəzifələrdən bəhs olunurdu. “Cocuqlar bizim amalımız olduğu üçün gərək camaat var qüvvələri ilə bu həftənin gözəl keçməsinə səy etsin” deyən komsomol təşkilatı hələ ilk gündən yeni nəslin kommunist əxlaqı ruhunda tərbiyə edilməsi işindəki rolunu qəzetin birinci nömrəsində ifadə etmişdir.



**“Cavanlar həyatı” qəzetinin ilk sayı, 9 noyabr 1921-ci il**



**“Şərq qapısı” qəzetinin 100-cü sayı**

“Naxçıvan xəbərləri” rubrikası altında muxtar respublikanın aktual ictimai-siyasi məsələlərinə dair yazılar dərc edilmişdir. Məqalədə göstərilir ki, oktyabrın 29-da Azərbaycan Gənclər İttifaqının Mərkəzi Komitəsi tərəfindən Naxçıvan Ölkə Komitəsinə teleqram göndərilmişdir. Teleqramda Azərbaycan komsomolunun III ildönümünün bütün Azərbaycan rayonlarında olduğu kimi, Naxçıvan Respublikasında da təntənə ilə qeyd edilməsi göstərilir. Məqalə Naxçıvan komsomol təşkilatının respublika daxilində apardığı ictimai işləri və gənclərin mübarizə tarixini əks etdirir. Qəzetin sonunda “Baş mühərrir Həmid” sözləri yazılmışdır.

1921-ci ilin dekabr ayından qəzet həftədə bir dəfə olmaqla daha geniş həcmdə “Füqərə səsi” ilə əvəz olunur. Qəzetin üz səhifəsində “AK(b)P Naxçıvan Ölkə Komitəsinin, Naxçıvan İctimai Şura Cümhuriyyətinin, Mərkəzi İcraiyyə Komitəsinin və Həmkarlar İttifaqı Şurasının naşiri-əfkarı olan, həftədə bir dəfə çıxan türk qəzetidir” sözləri yazılmışdır.

“Şərq qapısı” qəzetinin 10 illik yubiley nömrəsində qəzetin yaranma tarixi belə təqdim olunur: “1921-ci ilin tam noyabrın 1-dən bu gün 10 yaşını keçirən “Şərq qapısı”nın ilk rüşeymi 3 sütundan ibarət “Cavanlar həyatı” adında kiçik bir qəzetdən ibarət olmuşdur. Bu qəzet bir az sonra – 1921-ci ilin son həftələrindən “Füqərə səsi” ilə əvəz edilmişdir. Bu qəzet həftədə bir dəfə çıxmaqla ölkənin iqtisadi və siyasi məsələlərini əhatə edərək günü-gündən öz nüfuzunu artırmaqla və həm də tirajı etibarilə böyüməkdə idi. 1922-ci ilin yanvar ayında Azərbaycanda lazımi qədər mətbəə ləvazimatı alındıqdan sonra “Füqərə səsi” öz mövqeyini bu gün 10 sənəlik yubileyini keçirdiyimiz “Şərq qapısı”na vermişdir”.

Lətif Hüseynzadə isə “Şərq qapısı” qəzetinin 60 illik yubiley nömrəsində bu tarixi hadisəyə qiymət verərək yazırdı: “Füqərə səsi” “Cavanlar həyatı” qəzetinin inqilabi ənənələrini davam etdirərək dil və üslub xüsusiyyətlərinə, məqalələrinin keyfiyyətinə görə əvvəlki qəzetə nisbətən daha təkmil nəşr olunurdu”.

“Füqərə səsi” qəzetinin heç bir nömrəsi arxivlərimizdə qorunmadığından bu haqda qəti fikir söyləmək çətindir. Eləcə də qəzetin dekabrın sonu, yoxsa yanvarın əvvəllərində nəşr olunması faktı ətrafında mübahisəli suallar dolaşmaqdadır. Sonrakı tarixlərdə qəzetin 50 və 60 illik yubiley nömrələrinin dekabrın son günləri və yanvarın əvvəllərində qeyd olunması, ötən dövr ərzində qəzetin heç bir yubiley tarixinin 1 noyabr günündə xatırlanmaması mövzu ətrafında təzadlı fikirlərin yaranmasına səbəb olmuşdur.

Tarixdən gətirdiyimiz digər faktlar isə yuxarıda göstərilən məlumatlarla uyğunlaşmadığından konkret olaraq “Şərq qapısı” qəzetinin sələfinin noyabrın əvvəllərində işıq üzü görən “Cavanlar həyatı”, yoxsa dekabrın son günlərində dərc edilən “Füqərə səsi” olduğunun həlli də sual altında qaldığını göstərir.

Başqa bir tarixi məlumat üzərində dayanmaq yerinə düşərdi. Qəzetin 100-cü nömrəsinə həsr olunmuş xüsusi buraxılışda əsas səhifədəki “Yüz nömrə” başlıqlı məqalədə yazılır: “1922-ci ildə Ölkə Firqə Komitəsi tərəfindən “Füqərə səsi” qəzetəsinin intişarına başlanıldı. Bir neçə nömrə çıxandan sonra makina hürufatının, ələlxüsus kağızın olmadığından bu qəzetə də əvvəlkilər kimi çox uzun ömür sürmədi” .

Daha sonra məqalə müəllifi “Şərq qapısı”nın yaranma tarixini belə xatırlayır: “1922-ci ildə yoldaş Əhməd Haşımov xalq maarif komissarı vəzifəsini ifa edən zaman Azərbaycan hökuməti ilə əlaqəyə girib və indi mövcud olan makinələri bir az miqdarda hürufat ilə Naxçıvana gətirdilər. Bundan sonra Ölkə Firqə Komitəsi və Mərkəzi İcraiyyə Komitəsi tərəfindən “Şərq qapısı” namında qəzetənin nəşrinə başlanılsa da, həman qəzetənin müdire-məsulunun ölkədən getməsi bir tərəfdən, müxbirlərin olmaması, maddi zəiflik və bu kimi səbəblər bu qəzetənin qapanmasına bais oldu”.

Qəzetin mətbəə və avadanlıq məsələsi 1922-ci il dekabr ayının 9-da Naxçıvan Xalq Komissarları Sovetinin iclasında müzakirə olunur və müvafiq qərar qəbul edilir.

Məqalədə daha sonra deyilir: “1923-cü ildə Naxçıvan hökumətinin şuralaşması günü münasibətilə Ölkə Firqə Komitəsinin məsul katibi yoldaş Tahirovun təşəbbüsü ilə yenidən “Şərq qapısı” qəzetəsinin intişarına başlanıldı. İndiyə tək bu qəzetə davam edir”.

Beləliklə, belə nəticəyə gəlmək olar ki, Gənclər İttifaqının orqanı olaraq həyata vəsiqə alan “Cavanlar həyatı”nın qısa müddət ərzində təkmilləşərək daha geniş formatda və məzmunda nəşrini davam etdirməsi siyasi baxımdan daha önəmli olduğundan hakimiyyət “Füqərə səsi”nin davamlılığında məqsədli olmuş və həmin qəzet 1922-ci ilin aprel ayından “Şərq qapısı” adı altında yenidən bərpa olunsa da, 1923-cü ilin ortalarından varlığını bu günədək qoruyub saxlaya bilmişdir.

“Şərq qapısı” qəzeti 1930-cu ilədək ərəb, 1930-1940-cı illərdə latın, 1940-cı ildən 2001-ci ilin iyununadək kiril əlifbası ilə çap olunub. Həmin dövrdən indiyədək latın əlifbası ilə nəşr olunur.

*(Ardı var)*

**Surə SEYİD**
***filologiya üzrə fəlsəfə doktoru***

## Eşitmə məhdudiyyəti olanlar üçün daktilo əlifbasının tədrisi üzrə kurs təşkil edilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın icrası bu kateqoriyadan olan uşaqların müasir tələblər səviyyəsində təhsil almasına, cəmiyyətə fəal inteqrasiyasına təkan verir.

Bu istiqamətdə görülən tədbirlərin davamı olaraq, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində eşitmə məhdudiyyəti olan şəxslər üçün daktilo əlifbasının tədrisi üzrə növbəti kursa başlanılıb. Məqsəd bu kateqoriyadan olan 7 şəxsin təhsilinin davam etdirilməsinin təmin edilməsidir.

İyun ayının 18-də başlayan kurs bir ay davam edəcək. Dərsləri sağlamlıq imkanları məhdud uşaqlar üçün 3 nömrəli respublika xüsusi internat məktəbinin müəllimi tədris edir.

Məlumat üçün qeyd edək ki, yeni tədris ilində eşitmə məhdudiyyəti olan məktəbyaşlı uşaqların təhsil alması üçün bu qəbildən olan kursun təşkili istiqamətində hazırlıq işləri görülür.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Karate-do üzrə Naxçıvan şəhər birinciliyi

***Dünən Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 26 İyun – Silahlı Qüvvələr Günü münasibətilə yeniyetmələr arasında karate-do üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.***

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov yarışın açılış mərasimində çıxış edərək Azərbaycan Silahlı Qüvvələrinin yaranma tarixindən, inkişafından, ordu quruculuğunda, Silahlı Qüvvələrin təkmilləşdirilməsi və maddi-texniki bazasının gücləndirilməsində ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən söhbət açıb.

Vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin 1998-ci il mayın 22-də imzaladığı Fərmanla 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edilib. Bu tarixin Silahlı Qüvvələr Günü elan edilməsi milli ordu quruculuğunda varislik ənənələrinin bərpası və tarixilik baxımından böyük əhəmiyyətə malikdir.

Sonra Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədr müavini, yarışın baş hakimi Nəriman Quliyev yarış iştirakçılarına uğurlar arzulayıb və yarışın qaydaları haqqında idmançıları məlumatlandırıb.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 4 yaş qrupunda 50 idmançı mübarizə aparıb. 8-9 yaş qrupunda Rəşid Süleymanov, 10-11 yaş qrupunda Vüsal Seyidov, 12-13 yaş qrupunda Murad Ələkbərov, 14-15 yaş qrupunda isə Sərcan Məmmədov qaliblər sırasına yüksələrək yaşıdları arasında I yerə layiq görülüblər.

Sonda hər yaş qrupunda I, II və III yerləri tutan idmançılara təşkilatçıların diplom və hədiyyələri təqdim olunub.

**Xəbərlər şöbəsi**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 502